**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN DİLİNDƏ DEFİNİTİV TERMİNLƏRİN YARANMA PROSESİ

**İxtisas: 5706.01 – Azərbaycan dili**

Elm sahəsi: filologiya

İddiaçı: **Gülnarə Ələkbər qızı Zeynalova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Sayalı Allahverdi qızı Sadıqova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Sənubər Əlövsət qızı Abdullayeva**

filologiya elmləri doktoru, dosent
**Həcər Emin qızı Hüseynova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Həbib Adil oğlu Mirzəyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
**Nadir Baloğlan oğlu Məmmədli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Yusif qızı Məmmədova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Nadir Baloğlan oğlu Məmmədli**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə texnikanın, elm sahələrinin sürətli inkişafı ilə bağlı olaraq Azərbaycan dilində terminologiya sistemi sürətlə zənginləşir. XX əsrin 30-50-ci illərində elmin nüvə fizikası, 50-60-cı illərində sintetik liflər kimyası, informatika nəzəriyyəsi, kibernetika, biofizika və s. sahələri yaranmışdır. Sosial cəmiyyətdə baş verən hadisələr, mədəni, iqtisadi və elmi-texniki sahələrdəki dəyişmələr yeni terminlərin yaranmasını şərtləndirir. Nəzəri biliklər yeni anlayış və terminlərlə ifadə olunur və əsas təfəkkür forması anlayış vasitəsi ilə reallaşır. Elmlərin inkişafında daimi dəyişmələr baş verir, sahəyə yeni terminlər daxil olur, elmlərin əsas anlayışları təkrar dərketmədən keçir və nəticədə terminologiya inkişaf edir. İnformatika, kibernetika, bionika və s. yeni elm sahələrinin də özlərinə məxsus terminoloji sistemləri əmələ gəlir. Hər bir elm sahəsinin terminlər sistemi məzmun və formaca yeni terminlərlə inkişaf edir. Müasir dövrdə sosial cəmiyyətdə, ictimai həyatda baş verən dəyişmələr də dildə yeni terminlərin yaranmasına səbəb olur. İnkişaf edən bütün sahələr yeni terminləri və onların yeni tiplərinin funksional əlamətlərini − nominativ (siqnifikativ), informativ, kommunikativ, requlyativ, sistemyaradıcı, definitiv funksiyalarını meydana çıxarır. Hər bir yenilik yeni terminlərin meydana gəlməsini tələb edir. Tələb ən çox terminin sadəcə olaraq istifadəsini deyil, eyni zamanda, onun daxilindəki məzmun və formanın ən başlıca əlamətlərinin təyin olunmasıdır. Bu cür təqdim olunma yeni tipli terminləri şərtləndirir ki, bunlardan da ən mühümü onların definisiyasının dəqiq təyin edilməsi və adlandırılmasıdır.

Terminlər dilin və terminoloji sistemin elmi təfəkkürlə bağlı vahididir. Terminlər çoxsaylı məfhum və anlayışları adlandırır. Elmdə terminlər sayəsində mümkün olduğu qədər dəqiqlik, obyektivlik və anlayışın lakonik ifadəsi təmin edilir. Terminlərin dildə məzmun planından əlavə, ifadə planı da mövcuddur. Bu ifadə planları məfhum və anlayışların əlamətlərində və eyni zamanda, terminin formasında cəmlənir. Həmin əlamətlərin təyini, yəni

müəyyənləşdirilməsi anlayışın definitiv təyininin öhdəsinə düşür. Terminləşmə prosesində anlayışın ən mühüm zəruri və kafi əlaməti reprezentasiya olunur. Anlayışın terminlə ifadəsində leksik məna meydana çıxır və onun əsas əlaməti müxtəlif termin strukturunda əks olunur. Azərbaycan dilində terminologiyanın bir çox linqvistik, xüsusilə məntiqi-linqvistik problemləri həllini tapmamışdır. Həllini gözləyən, müəyyən dərəcədə ekstralinqvistik səciyyə daşıyan məsələlərdən biri elm sahələrinin əsas anlayışlarının bir çoxunun vahid tərifinin, definisiyasının müəyyənləşdirilməməsidir. Azərbaycan dilində terminlərin mahiyyətinin müəyyənləşdirilməsi üçün onu definitivlik anlayışı fonunda öyrənmək zəruridir. Bu, mövcud terminologiyanın, eləcə də sahə elmi dilinin formalaşmasının, həmçinin terminoloji proseslərin elmi biliklərin tələblərinə uyğunluğunun təyin edilməsinə imkan yaradır. Terminin bir sıra təyinetmə obyektləri mövcuddur. Bu baxımdan terminin əsas səciyyəvi əlamətləri müəyyənləşdirilir və terminlərin məna sərhədləri anlayış cəhətdən təyin edilir. Standartlaşdırma da elmi-texniki terminologiyada unifikasiya və optimallaşma şərtlərinə əsaslanır. Bu baxımdan elmi-texniki terminlərin definitiv funksiyasını, struktur-semantik özəlliklərini dəqiqləşdirmək zəruridir. Definisiyada mövcud olan hər bir terminin semantik modelləri meydana çıxır. Anlayışın optimal strukturu müəyyənləşir və terminologiyada bir sistem kimi tədqiq edilir. Digər bir cəhətdən, terminlərin anlayışları dəqiq, mahiyyətlərinə uyğun ifadə etmələri zəruri şərt sayılır. Bu şərtlərin təyini terminologiyanın linqvistik təhlili və unifikasiyası, standartlaşdırma xüsusiyyətlərinin müəyyənləşdirilməsinə imkan yaradır. Bütün bunlar göstərir ki, terminlərə xas olan mükəmməl, tam əsaslı təyinatın, definitiv norma və mexanizmin tədqiqi ən vacib məsələlərdəndir. Ümumiyyətlə, definitivləşmənin mahiyyəti, tipik əlamətləri terminin yaranma prosesinin inkişaf istiqamətləri və qanunauyğunluqlarının araşdırılması dilçilikdə öz həllini gözləyən problemlərdəndir. Bütün bu problemlərin həlli mövzunun aktuallığını əsaslandırır.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti Azərbaycan dilinin terminoloji sistemində yer alan və elmi anlayışların məzmununu şərh

edən, onun sərhədlərini təsbit edən terminlərdir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti Azərbaycan dilinin terminoloji sistemində definitiv terminlərin məntiqi-linqvistik əsaslarının, yaranma prosesinin sistemli araşdırılması, habelə bu növ terminlərin standartlaşdırılması normalarının müəyyənləşdirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi terminin definitivləşmə prosesinin və onun qanunauyğunluqlarının araşdırılmasıdır. Bu məqsədlərə nail olmaq üçün dissertasiyada aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- terminin nominativ, informativ, kommunikativ, requlyativ, sistemyaradıcı, definitiv funksiyalarını müəyyənləşdirmək;
- terminin göstərilən funksiyalarının bir-birindən fərqli əlamətlərini aşkar etmək, definitiv funksiyanın məzmun və mexanizmini aydınlaşdırmaq;
- definitiv terminin əsas mahiyyətini açmaq, həmin tip terminləri təyin etmək, tipik əsketdirmə, təsviretmə əlamətlərini üzə çıxarmaq;
- definitiv terminlərin yaranma prosesinin mexanizmini məntiqi-linqvistik tələblər əsasında aydınlaşdırmaq;
- definitiv terminin optimal strukturunu (ixtiyarilik, ixtiyari kontekst və s.) müəyyənləşdirmək;
- definitiv terminin semantikasını, onu təyin edən semantik modellərini müəyyənləşdirmək;
- semiotik aspektdə terminin strukturunu müəyyən etmək;
- elmi-texniki terminlərin standartlaşdırılması yollarının qanunauyğunluqlarını müəyyənləşdirmək;
- definitiv terminlərin sistemyaradıcı və sözyaradıcı modellərini interpretasiya etmək;
- definitiv terminlərin formatları arasındakı sərhədləri göstərmək;
- definitiv terminlərin məntiqi-linqvistik əsaslarını müəyyənləşdirmək;
- definitiv tipli terminlərin sistem-strukturunu təyin etmək;
- terminoloji sistemdə definitiv tipin etalonunu (ən dəqiq

ölçüsünü) dəqiqləşdirmək.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Aparılmış tədqiqat işinin nəticəsi kimi müdafiəyə təqdim edilən müddəalar aşağıdakılardır:

- Azərbaycan dilində definitiv terminlərin özünəməxsus məntiqi-linqvistik əsasları mövcuddur;
- Definitiv terminlərdə məzmun və forma vəhdəti, əlaqəsi məna və məfhum arasındakı münasibətdən doğur;
- Definisiya və onun şərh, izaholunma tipi, eləcə də leksik semantik və struktur əlamətləri sintaqmatik və assosiativ münasibətləri şərtləndirir;
- Definitivlik terminoloji sahədə formalaşır;
- Definitiv terminlərin yaranma mənbələrini dilin daxili imkanları və alınmalar təşkil edir;
- Definitiv kontekst definisiya ölçülərini, tərifin mövcud formalarını və standartlaşma prosesini müəyyənləşdirir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq Azərbaycan dilinin terminoloji sistemində anlayışların definitivləşmə prosesinin məntiqi-linqvistik əsasları müəyyənləşdirilmişdir. Anlayışların definitivləşmə prosesi, onların məntiqi təyini, definitiv terminlərin mahiyyəti, əmələ gəlmə yolları, qurulma mexanizmi, funksional əlamətləri, optimal struktur-semantik modelləri, təsnifi, standartlaşdırılma imkanları, normativləşmə kimi problemlər ilk dəfə kompleks halda tədqiq olunmuşdur. Tədqiqatda Azərbaycan dilçiliyində definitiv tipli terminlərin strukturu, təyinetmə funksiyaları və etalon dərəcələri zəngin faktiki materiallar əsasında araşdırılır. Bütövlükdə, definitiv tip terminlərin təyini, definitiv funksiyasının mexanizminin hərtərəfli şəkildə açılması, onların strukturu və semantikası, semantik modellərin dəqiqləşdirilməsi, həmin terminlərin unifikasiyası və standartlaşma məsələlərinin interpretasiyası və bunların terminoloji lüğətlərdə əksi problemləri tədqiq olunmuşdur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyada Azərbaycan dilində işlənən definitiv terminlərin məntiqi-linqvistik məzmunu təhlil edilir. Aydınlaşdırılır ki, nəzəri cəhətdən terminoloji

sistemdə, funksional təbəqədə və tipoloji arenada modelləşdirmə, standartlaşdırma və s. aktual problemlərin tədqiqində definitiv terminlərin də öz yeri və mövqeyi mövcuddur. Tədqiqatın nəticələri, terminologiyada termin yaradıcılığı işinin tənzimlənməsində, düzgün istiqamətləndirilməsində, terminlərin yaradılması üsullarının təkmilləşdirilməsində, unifikasiya və standartlaşma məsələlərinin həllində faydalıdır.

Dissertasiyada əks olunmuş elmi mülahizə və nəzəri fikirlərdən terminologiya ilə bağlı yazılacaq əsərlərdə, dərsliklərin yazılmasında, elm və texnikanın müxtəlif sahələrinə aid terminoloji, filoloji lüğətlərin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın metodları.** Dissertasiya dilçiliyin ənənəvi tədqiqat metodları – təsviri, müqayisəli metodlarından istifadə etməklə, sinxron planda araşdırılmışdır.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları beynəlxalq və Respublika səviyyəli konfrans materiallarındakı məruzələrdə öz əksini tapmışdır. Mövzu ilə bağlı məqalələr AAK-nın tövsiyə etdiyi toplularda nəşr edilmişdir.

**Tədqiqat işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Giriş 5 səhifə, I fəsil 44 səhifə, II fəsil 34 səhifə, III fəsil 45 səhifə, Nəticə 3 səhifə, İstifadə edilmiş ədəbiyyat siyahısı 25 səhifə. Dissertasiya işi ümumilikdə 158 səhifə, 234, 954 işarədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin

ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiyanın **"Azərbaycan dilində definitiv terminlərin məntiqi-linqvistik əsasları"** adlanan birinci fəsli 5 bölmədən ibarətdir. Birinci bölmə **"Terminologiyada definitivlik anlayışı"** adlanır. Dildə mövcud olan terminlər əşyaların, proseslərin, obyektiv gerçəkliklərin, hadisələrin və bunlar haqqındakı anlayışların adlarıdır. Onların funksional cəhətdən müəyyənləşdirilməsi, məntiqi təyini, strukturlaşdırılmış məfhumun, anlayışın yaranması üçün əsasdır. Definitivləşmə prosesinin sistemli tədqiqi terminlərin düzgün təyininə, adlandırılmasına, elm sahələrinin terminologiyasının inkişafına təkan verir. Buna görə də definitiv terminlərin öyrənilməsi tədqiqat əsərlərində müsbət qiymətləndirilir. Definitivlik dilçilikdə geniş elmi şərhini gözləyən aktual problemlər sırasına daxildir. Türk dillərində definitivlik probleminə ilk dəfə geniş şəkildə B.Çobanzadə aydınlıq gətirmiş, definitivlik kateqoriyasına ümumi dilçilik aspektindən yanaşmışdır.

S.Mayzel definitivlik kateqoriyası ilə bağlı tədqiqat apardığı "*Türk dilində izafət"* adlı monoqrafiyasında[1] türk dilinin sintaktik quruluşunun təhlilində bu problemə aydınlıq gətirmişdir. P.B.Veselov belə terminlərdən bəhs edərək yazır ki, *ilk dəfə olaraq terminin definitiv tipi haqqında D.S.Lotte məlumat vermiş, onun qurulma sistemini şərh etmişdir.*[2]

Hər hansı bir termin, məsələn, fizikada "dalğa", "qüvvə", "molekul" məfhumları hər hansı bir sahədə olduğu kimi, bu sahədə də onların tərifini tələb edir və diferensial təzahürlərin yığımı bu məfhumların sərhədlərini cızır. Belə ki, "Bir cismin başqa cismə təsirini xarakterizə edən kəmiyyətə qüvvə deyilir"; "Rəqslərin mühitdə yayılma prosesinə dalğa deyilir"; "Məhdud sayda müxtəlif kimyəvi elementlərin atomlarının kombinasiyalarla qruplaşaraq əmələ gətirdiyi hissəciyə molekul deyilir". Bu terminlərin hər birinin

---

1Майзель, С.С. Изафет в турецком языке / С.С.Майзель. – Москва-Ленинград: Изд-во Акад. Наук СССР, – 1957. – 187 с.

2 Məmmədov, A. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi / A.Məmmədov. – Bakı: Elm, – 2001. s.15

tərifi onun sərhədlərini təyin etmiş və anlayışı tam şəkildə özündə ifadə etmişdir. Demək, *"Sözün daxili formasına görə tərif (definisiya) "sərhədlərin müəyyənləşdirilməsi, göstərilməsi" − de+finis mənasını verir. Təyin sözü latınca definito = definiio sərhədlərə alma deməkdir"*[3].

Definitivləşmə prosesində tərif anlayışı əsas yerlərdən birini tutur. Ferdinand de Sössür "Ümumi dilçilik kursu" kitabında tərifi dilin həyatı üçün olduqca zəruri sayır və tərif haqqında ayrıca bəhs edir, onun sintaqmatik və assosiativ münasibətlərlə şərtləndiyini göstərir[4].

Terminoloji vahidlər də elmi anlayışlar sistemi ilə birbaşa uzlaşır, gerçək təcrübə zəminində yaranan termin, definitiv tərif qazanmaq üçün elmi anlayışların məzmununu şərh edir, onun sərhədlərini müəyyənləşdirir. Mətnlə bağlılıq məsələsinin də termini səciyyələndirməkdə müəyyən rolu vardır. Başqa sözlə, mətnlə termin arasında əlaqəyə, münasibətə həssas yanaşmaq vacibdir. Mətndən asılılıq, ancaq termin definisiyaya malik olduqdan, yəni söz və söz birləşməsi xüsusi təyinat aldıqdan, yəni terminləşdikdən sonra aradan qalxır. Formalaşma və definisiya qazanma prosesində isə termin hələ kontekstdən − mətndən asılı olur. Yəni adi sözün, eləcə də söz birləşməsinin mətndə eyni mənada işlənmə tezliyinin kəmiyyətcə artması və çoxalması onun semantika sahəsində müəyyən bir mənanın xüsusiləşməsinə, dəqiqləşməsinə və ətrafında definitiv tərifin yaranmasına kömək edir.

Anlayış terminoloji sistemdə çıxış nöqtəsi sayılır. Terminoloji leksikanın formalaşdırılması və dəqiq təyin olunmasında strukturla yanaşı, anlayışın əsas əlamətlərinin nəzərə alınması vacibliyi əsas götürülür. Anlayışın əsas əlaməti məna cəhətinə aparan yoldur. Təyinat, təyinolunma xüsusiyyəti terminin mənası hesab edilir. Təyinatın qeyri-məlumluğu terminin də məlum olmamasını göstərən amil kimi özünü büruzə verir. Anlayış əslində

---

3 Веселов, П.В. К вопросу о типологии терминов /Moskva, – 1971. – с. 3.
4 Sössür, F.Ümumi dilçilik kursu / F.Sössür. – Bakı: BDU nəşri, - 2003. – s.230-232

məntiqi bir termin olub, əşya və hadisələrin ümumi və başlıca xassə və əlamətlərini əks etdirən ideya kimi məntiqlə səciyyələnir.

S.Sadıqova definitiv terminə belə tərif verir: *"Məna və məzmun quruluşlu obyektin, hər hansı bir anlayışın ən mühüm, zəruri və kafi əlamətlərini özündə saxlayan, qısa məntiqi təyini olan terminlərə definitiv terminlər deyilir"*[5].

Tərifdən aydın olur ki, terminin adlandırılmasında, anlayışın təyinində onun definitivlik əlaməti əsas götürülməlidir. Terminin təyini anlayışın leksik-semantik definitivlik sırasına daxildir. Leksik-semantik definitivlik geniş anlayış ifadə edir. Burada həm nominativ, həm də nominativ-definitiv dil vahidləri öz əksini tapır. Yəni definitivlik müxtəlif anlayışlar əks etdirən, elmi mahiyyət daşıyan terminlərin əsas xarakterik xüsusiyyətidir.

**"Definitiv terminlərdə məzmun və forma əlaqəsi, məna və məfhum arasında münasibət"** adlanan ikinci bölmədə qeyd olunur ki, terminoloji sistemdə terminin həm məzmunu, həm də forması vardır. Məzmun terminoloji vahidin mahiyyəti ilə əlaqədar olub, müəyyən bir nöqteyi-nəzərdən dərk və təsvir edilir. Terminin məzmunu yalnız müəyyən bir forma daxilində meydana çıxa bilər. Forma və məzmunun vəhdəti terminoloji vahid üçün də zəruri şərtlərdən biridir.

Definitiv termin funksional anlayışdır. Bu problemin uğurlu həlli, bütöv dil vahidində əksini tapan "məzmun" və "forma" anlayışlarının təbiətini aydınlaşdırmağa imkanı verir.

Definitiv terminlər elmi anlayışları formalaşdırır və ifadə edir. Ona görə də bu terminləri elmi anlayışların semiotikası hesab etmək olar. Definitiv terminlərin mahiyyətini, məntiqi-linqvistik əsaslarını aydınlaşdırmaq üçün, ilk növbədə, ümumi anlayış ifadə edən dil vahidinə − sözə müraciət etmək vacibdir. Söz dilin əsas vahididir. Anlayışı bildirən söz, yaxud söz birləşməsi elm sahələrində predmetin, hadisənin, reallığın elmi təfəkkürdən keçərək

5 Sadıqova, S.A. Azərbaycan dilində definitiv terminlər / S.A.Sadıqova. – Bakı: Örnək, – 1994. – s.25

xüsusiləşməsi yolu ilə terminləşir. O, ənənəvi terminoloji anlayış sistemində denotatın intellektual elmi qavranışı yolu ilə definitiv tərifini tapır. Məsələn, "təcil maddi nöqtənin sürətinin qiymət və istiqamətinin zamana görə dəyişməsini xarakterizə edən vektor kəmiyyəti"dir. Deməli, definitivləşmə hər hansı bir anlayışın ən mühüm əlamətlərini özündə əks etdirir. Ancaq termin definisiyaya malik olduqdan, yəni söz və söz birləşməsi xüsusi təyinat aldıqdan, yəni terminləşdikdən sonra xüsusiləşir.

Definitiv terminlərdə məntiqi cəhət əsas olduğundan, onların əksəriyyəti bütün dillər üçün eynidir. Bu zaman terminin məfhumla əlaqədar cəhətlərini tərcümə etmək çətinlik törətmir, onun əşyavi-məntiqi mənasının qarşılığını tapmaq asan olur. Definitiv terminlərin tədqiqindən aydınlaşır ki, məfhum məntiqlə yanaşı, dilçiliyin də əsas kateqoriyasıdır. Termin əşya ilə yalnız məna cəhətdən bağlı olur. Odur ki, terminin səs tərkibi süni və ya şərti işarə hesab edilir. Çünki hər hansı terminin səs tərkibi dilin tarixi inkişafı prosesində məna ilə əlaqələnir. Bu səbəbdən də, definitiv terminlərdə məna əsas götürülür. Gerçəkliyin bütün obyektlərində olduğu kimi, dilin leksik-semantik sistemində özünəməxsus yeri olan definitiv terminlərdə də məzmun və formanın vəhdətdə olması təbiidir. Yəni definitiv terminlərdə məzmun formadan ayrı deyildir. Müxtəlif şəkillərdə müşahidə edilən definitiv terminlər gerçəkliyin müxtəlif sahələrinə dair anlayışları bildirir. Definitiv terminlərdə də məna ilə məfhum daxili vəhdətdədir.

**"Terminoloji sistemdə termin və onun funksiyaları"** adlanan üçüncü bölmədə terminlərin funksiyaları xarakterizə edilir. Müasir dövrdə elm və texnikanın inkişafı terminoloji sistemin zənginləşməsinə imkan verir. Terminoloji sistemi təşkil edən terminləri birləşdirən ümumi xüsusiyyətlər isə müxtəlif cəhətdən təyin edilir. Azərbaycan dilinin lüğət tərkibindəki bütün terminləri dil və anlayış arasındakı əlaqə asılılığına və funksiyasına görə iki qrupa ayırmaq olar: 1. Terminin nominativ funksiyası; 2. Terminin definitiv funksiyası. Bu baxımdan elm sahələrinin əsasını təşkil edən terminlərə daşıdığı funksiyasına görə sistem kimi yanaşmaq lazımdır. Çünki müxtəlif elm sahələrinin bir-birindən

fərqləndirilməsi onları təşkil edən terminlər əsasında aparılır. Sahə daxilində isə eyni anlayışı əks etdirən terminin başlıca funksiyası onu adlandırmasıdır. Adlandırma prosesində anlayışla termin arasında assosiativ əlaqə əsas götürülməli, onu xarakterizə edən əlamətlər müəyyənləşdirilməlidir.

Terminlərdə nominativ və definitiv funksiyalar bir-birini tamamlayır. Əslində onlar bir-birindən ayrılmazdır. Yəni təbiətə aid hadisələri, istehsal proseslərini adlandırmaq həm də onların fərqləndirilməsi deməkdir. Ona görə də terminin nominativ funksiyası deyərkən, elm və texnika ilə əlaqədar real varlıqları – əşyaları, hadisə və prosesləri adlandırmaq nəzərdə tutulur. Doğrudur, *"ümumişlək sözlərdə də nominativ funksiya əsasdır. Bununla yanaşı, terminoloji vahidin ümumişlək sözdən başlıca fərqli cəhəti onun definitiv funksiyaya da malik olmasıdır"*[6].

Terminlərin tipoloji xüsusiyyətlərinin müəyyən edilməsində onların nominativ və definitiv funksiyaları nəzərə alınır. Tipoloji fərq nəticəsində terminlərin əlamətlərinin ümumiliyini müəyyənləşdirmək başlıca yer tutur. Belə bir elmi qənaət hasil olmuşdur ki, definitivlik termin üçün başlıca, vacib sayılan, onu təyin edən, müəyyənləşdirən əlamətdir. Definitivlik terminin bir növ fərqləndirici işarəsidir.

**"Definisiya və onun izaholunma tipləri"** adlanan dördüncü bölmədə göstərilir ki, definisiya bir anlayışı digər anlayışlardan fərqləndirən başlıca xüsusiyyətlərə görə verilir. Terminləşmə prosesində anlayışın təyinində fərqləndirici əlamətlər düzgün seçilməlidir. Obyekt kimi götürülən terminin definisiyasının müəyyənləşdirilməsi özü bir mərhələdir.

Konkret və mücərrəd varlıqların anlayışa aidliyi definisiyadakı əlamətlər əsasında müəyyən olunur. Amma bəzi məqamlarda bu əlamətlər məcmusu, varlığın predmetlərinin aid olduğu sahəyə daxil olunmasını heç də kifayət qədər əks etdirmir. Bu məqamda anlayışların yeni əlamətləri meydana çıxır və yeni

---

6 Комарова, З.И. Семантические проблемы русской отраслевой терминографии: /автореферат дис. … кандидата филологических наук / – Екатеринбург, 1991

cəhətlərə görə anlayışa təkrar definisiya (şərh, izah) verilir və verilmiş təriflər bir-birinin inkarına çevrilmir.

Anlayışa verilmiş hər bir tərifdə onun əsas məna əlaməti, kafi və zəruri əlamətləri ön plandadır. Həmin terminlərin mövcud definisiyası öz əksini lüğətlərdə, dərsliklərdə və elmi məxəzlərdə tapır. İzahlı lüğətlərə istinadən aparılmış araşdırmalar göstərir ki, müxtəlif tipli mənbələrdə eyni terminin tərifi və şərhi fərqlilik yaradır. Tərif və izahlarda olan bu fərqli cəhətlərə görə definisiyanı bir neçə qrupa ayırmaq olar: Birinci halda definisiyada anlayış tam şəkildə şərh olunur və ensiklopedik, həmçinin də ciddi xarakter daşıyır. İkinci halda definisiyada yalnız anlayışın detalları şərh edilir.

Definisiyanın izah və şərhinin özünəməxsus xüsusiyyətləri vardır. Bu, hər şeydən öncə, anlayışın aşkar edilməsi, onun semantikasının müəyyənləşdirilməsi, məntiqi mənanın əsaslandırılması və sonra isə əyaniləşdirilməsi ilə sıx şəkildə əlaqədardır. Beləliklə, definisiyanın izah, şərh tiplərinin xarakterik xüsusiyyətləri göstərir ki, termin-anlayışın ən ümdə əlamətlərinin üzə çıxarılması və ona tərif verilməsi, dil vahidlərinin təbiətinin özülünün qoyulmasına aparıb çıxarır. Bu zaman anlayış əyaniləşir və dərk edilir.

**“Definitiv terminlərin leksik-semantik və struktur xüsusiyyətləri”** adı ilə təqdim edilən beşinci bölmədə definitiv terminlərin mahiyyətini anlamaq üçün söz və terminin leksik-semantik əlamətləri müəyyənləşdirilmişdir.

Termin dili inkişaf etdirən, elm sahələrində anlayışları təyin edən ən vacib leksik vahiddir. Anlayışların təyini definitiv tipli terminlərin konkret olaraq müəyyənləşdirilməsi və onların semantik xassələrinin termində ifadə edilməsidir. Məna bu və ya digər definitiv tipli terminin müxtəlif xassələrini müxtəlif səviyyələrdə və modellərdə mücərrədləşdirərək təqdim edir. Bununla da terminin semantikasında onun əsas keyfiyyətləri, insan təfəkkürü ilə birbaşa bağlı olan əlamətləri nəzərə alınır. Terminin definitivliyinin müəyyənləşdirilməsində diferensial əlamətlər meydana çıxır. Diferensial əlamətlər müxtəlif təriflərin verilməsi ilə bağlı olur. Definitiv terminlərin dəqiq təyini üstünlük təşkil etdiyinə görə onun

ifadə forması olan  səs cildi də onunla üzvü surətdə bağlı olur və onun terminoloji funksiyası müəyyənləşir. Cəmiyyətin yarandığı ilkin dövrdən terminlər müəyyən inkişaf mərhələsi keçib, formalaşaraq sabitləşmiş terminoloji sistemə malik olmuşdur.

Definitiv terminlər məfhum və anlayışın ən mühüm əlamətlərini özündə mühafizə edərək saxlayır. Dilimizdə mövcud olan terminlərin dilçilik baxımından təhlili, onların semantik və sintaktik xüsusiyyətlərinin, eləcə də strukturunun elmi şərhini vermək vacib məsələlərdəndir. Terminlərin quruluşca növlərini ilk olaraq dilin leksik vahidləri səviyyəsində öyrənmək mümkündür.

Müasir dövrdə yeni elm sahələri mövcud elmlərin qovşağında yaranırsa, yeni anlayışlar da artıq mövcud olan anlayışların kəsişmə nöqtəsində meydana gəlir və onların nominasiyasında təkcə bir fərqləndirici əlamət kifayət etmir. Nəticədə isə struktur xüsusiyyətlərinə əsasən, bir neçə əlamətə görə motivləşmə − mürəkkəb terminlər və ya terminoloji birləşmələrin yaradılması baş verir.

Mürəkkəb terminoloji birləşmələr sadə terminoloji birləşmələrdən yalnız komponentlərinin sayına və məna genişliyinə görə fərqlənir. Belə terminlərdə nominasiya yüksək səviyyədə gerçəkləşməli, dilin leksik-fonetik meyarlarına münasibət olmalıdır. Bu isə definitiv terminlərin tərifində çoxkomponentli terminlərin islah edilməsi məsələsini ortaya çıxarır.

İkikomponentli mürəkkəb definitiv terminlərlə yanaşı, terminologiyada çoxkomponentli terminoloji birləşmələr də işləkliyi ilə fərqlənir. Məsələn, "faydalı iş əmsalı", "təyini söz birləşməsi", "mübtəda budaq cümləsi" və s.

Definitiv terminlər digər terminlər kimi quruluşuna və yaranma mənbələrinə görə də müxtəlifdir. Azərbaycan dilində definitiv terminləri strukturuna görə sadə, düzəltmə və mürəkkəb olmaqla üç qrupa ayırmaq olar.

**"Azərbaycan dilində definitiv terminlərin yaranma mənbələri"** adlanan ikinci fəsli  dörd bölmədən ibarətdir. Birinci bölmə **"Dilin daxili imkanları definitiv terminlərin yaranma mənbəyi kimi"** adlanır. Anlayışın zəruri və kafi əlamətlərini özündə

əks etdirən, saxlayan definitiv terminlərin yaranmasının əsasında dilin milli sözlərinin terminləşməsi, digər dillərdən terminalma, başqa dillərdən kalkaetmə və qrammatik üsullarla terminyaratma durur.

Azərbaycan dilinin daxili imkanları hesabına yaranan definitiv terminlər xalqın milli təfəkkürünün formalaşması ilə əlaqədar əmələ gəlmişdir. Əvvəlcə adi söz olan definitiv terminlər müəyyən dövrlərdə, xüsusən də elmlərin ayrılaraq müstəqilləşdiyi bir zamanda formalaşmış və xüsusi təyinedicilik əlaməti qazanmışdır. Bu baxımdan elm və texnikanın müxtəlif sahələrində meydana gələn yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl ana dilinin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə etmək lazımdır.

Azərbaycan dilində definitiv terminlərin yaranmasında bir çox üsullardan istifadə olunur. Müasir ədəbi dillərin terminologiyasında sözlərin mənasının dəyişdirilməsi, yəni semantik üsul geniş tətbiq olunur. Bu məna dəyişmələri əslində sözün, terminin mənaca inkişafına səbəb olur. Bu üsulla əmələ gələn definitiv terminlər yeni məzmun qazanır. Sintaktik üsulla definitiv terminlərin yaranması dilin inkişaf tarixi baxımından genişliyi ilə seçilir. Çünki tarixən sintaktik yolla yalnız sözlər mürəkkəbləşmişdir. Sintaktik yolla əmələ gəlmiş definitiv terminlər mətndaxili münasibətdə sintaktik əlaqəyə girir, birləşmə vasitəsilə yeni məna ifadə edən söz birləşmələri şəklində dil vahidi yaradır. Beləliklə, definitiv terminlərin bir çoxu sintaktik üsulun köməyi ilə əmələ gəlir. Bu üsulla yaranan definitiv terminlərin strukturu, əsasən, söz birləşməsi şəklində olur. Məsələn, tərzi-hərəkət zərfliyi, zaman zərfliyi, yer zərfliyi və s.

Kalka üsulu da definitiv termin yaradıcılığında müəyyən mövqe tutur. Kalka üsulu ilə definitiv termin yaradıcılığında dilin öz materialı iştirak edir. Yəni digər dilə məxsus quruluş və məna Azərbaycan dilinə köçürülür. Məsələn, dilimizdə işlənən "havaölçən" terminini götürək. Həmin termin rus dilindəki "воздухомер" sözündən kalka edilmişdir. Mürəkkəb quruluşlu model-hissələr − hava-vozdux, ölçən-mer saxlanılmışdır. Riyaziyyat

elmində Azərbaycan dilinə aid olan "əyrixətli" ("криволинейный"), "bucaqölçən" ("угломер") və s. terminləri də bu qəbildən saymaq olar. Dilimizdə kalkalaşma zamanı başqa dildən götürülmüş definitiv termin dilimizin daxili resursları hesabına əmələ gələn vahid üçün model rolunu oynayır. Beləliklə, Azərbaycan dilində terminologiyanın zəngin mənbələri bu sahədə olan leksikanın geniş imkanlarını əks etdirir.

İkinci fəslin ikinci bölməsi **"Alınmalar əsasında yaranan definitiv terminlər"** adlanır.

Ölkəmizin müstəqillik əldə etməsindən və xarici ölkələrlə birbaşa əlaqələrindən sonra dilimizin lüğət tərkibinə beynəlxalq xarakterli terminlər axını güclənmişdir. Avropa mənşəli olan belə terminlərin əksəriyyəti informatika, kommunikasiya prosesləri ilə əlaqədar olaraq dilimizdə olduğu kimi işlənir.

Uzun əsrlər boyu Azərbaycan dili əvvəlcə Şərq, sonra isə (XIX əsrin əvvəllərindən) Qərb dillərindən söz və terminlər almışdır. Tədqiqatçılar ümumi terminoloji fondda ərəb və fars dillərindən türk dillərinə keçmiş sözlərin mühüm hissəsinin definitiv xarakterli olduğunu göstərmişlər.

Elmi terminologiyada Avropa-Qərb mənşəli alınma definitiv terminlər üstünlüyü ilə seçilir. Avropa mənbəli definitiv tipli terminlər dilimizin qanunauyğunluqlarına tətbiq olunma xüsusiyyətləri ilə fərqlənir. Belə ki, elm və texnikaya, kibernetikaya, nüvə fizikasına, elektron-hesablama, fəza-kosmik texnikasına aid terminlərin müasir Azərbaycan dilində funksionallaşması, bu dilin demək olar ki, dünyanın bütün mədəni dilləri kimi inkişafını əsaslandırır. Müasir şəraitdə Azərbaycan dilinin terminologiyası üçün əsas alınma mənbə sayılan Qərb konteksti danılmaz faktdır. Bu mənbə elmi dilin lüğət tərkibini və terminologiyasını bütün elm sahələri üzrə zənginləşdirir.

**"Definitiv sahə anlayışı və sahə terminologiyasında definitivlik"** adlanan üçüncü bölmədə definitiv terminlər aid olduqları sahələr üzrə qruplaşdırılır. Azərbaycan dilçiliyində termin və terminoloji vahidlərin artmasında və beləliklə də, terminologiyamızın zənginləşməsində, onun potensial imkanlarının

üzə çıxarılmasında dünyada baş verən elmi-texniki, sosial tərəqqinin təsiri çox güclüdür. Bu nöqteyi-nəzərdən, hər bir sahə terminologiyasının özünəməxsus definitivliyi vardır. Məsələn, Azərbaycan dilinin terminoloji leksikasında iqtisadi terminlər mühüm yerlərdən birini tutur və ayrıca elm sahəsi kimi inkişaf edir. Sahə terminologiyasının definitivliyi o sahənin xüsusiyyətlərini özündə əks etdirir. Eləcə də, elm və texnikanın ayrı-ayrı sahələri üzrə terminlərin yaranmasının ənənəvi üsulları və qanunauyğunluqları, bunların elmi şəkildə açıqlanması terminşünaslıqda zəruri tədqiqat sahəsidir. Həm də terminlərin, daşıdıqları məna yükünə nə dərəcədə uyğun surətdə işlədilməsinə, əsas məzmununu nə dərəcədə əks etdirməsinə diqqət yetirmək vacibdir.

Azərbaycan dilçiliyinin sahə terminologiyasında definitivlik müxtəlif cəhətlərə görə fərqlidir. Dilçilikdə terminlərin anlayışı bir-birindən struktur-semantik cəhətdən tamlığına görə fərqlənir. Elmi-texniki terminlərdən fərqli olaraq, ictimai-siyasi terminlərdə anlayışın dəqiq tərifi əvəzinə təsviri izahı verilir və bu ideoloji məzmun ictimai-siyasi mətnin təsiri ilə formalaşır. Odur ki, ictimai-siyasi terminologiyada definisiyalar üstünlük təşkil edir.

Aydındır ki, terminlərin hansı sahəyə aid olması əlavə informasiya verməyi və ötürməyi tələb edir. Tədqiqatçıların fikrincə, definitivlik anlayışı bildirən sözün termin olmasını əsaslandırır və heç bir şübhə qalmır. Bu isə bir sıra sahə terminlərinin xüsusiyyətlərinin müəyyənləşdirilməsinə imkan yaradır. Müxtəlif terminlərə tərifin verilməsində işləndiyi sahə də nəzərə alınmalıdır. Terminin təyin olunması, hər şeydən öncə, sahə anlayışı ilə bağlıdır və sahədən kənarda həmin sahəyə aid termin yarana bilməz. Sahə terminləri onun baza anlayışlarının təyini prosesində yaranmağa başlayır və sahənin sonrakı inkişafı ilə artır. Sahə daim inkişaf etdiyinə görə onun hüdudları da genişdir. Sahə qapanmadığına görə ona aid terminoloji sistem də inkişafdadır. Sahəyə aid anlayışların dəqiqləşdirilməsi prosesində terminin dəyişməsi və onun yeni variantlarının yaranması hadisəsi də baş verə bilir.

Qeyd edilən şərtlər terminoloji sistem sferasının sahə terminologiyasındakı defnitivliyini əhatə edir. Bu məqamlar göstərir

ki, terminin yığcam, əsas tərifindən başqa, onun müəyyənləşdirilən əlamətləri də elm sahəsində özünə yer almalıdır.

**“Definitiv terminlərin semantik sferaları”** adlanan dördüncü bölmədə terminlərin semantik sahəsi tədqiq olunmuşdur. Semantik sahə termin-söz anlayışının aid olduğu elm sahələrində mövcud olur və bu sahə üçün ekstralinqvistik təsirlər nəticəsində dildə ifadə vasitələri yaranır. Əlbəttə, hər bir terminin semantikası, hər hansı bir semantik sahəyə daxil olması onun təyinatıdır, təyin olunduğu məkandır. Əgər təyinat bəlli deyilsə, terminin də hansı sahəyə aid olması məlum deyildir. Məsələn, fəlsəfənin əsas anlayışları sırasına “həqiqət”, “təbiət”, “insan”, “gözəllik”, “xeyir”, “əməl”, “dünya”, “insan” və s. sözləri də daxildir. Lakin bu sözlər xüsusiləşdikdə, söz sferasından çıxaraq definitivləşərək fəlsəfə terminlərinə çevrilmiş və fərqli anlayış-məna əlamətləri kəsb etmişdir. Terminin definitivləşməsi müəyyən sistem, sfera daxilində baş verir. Bu sistemə semantik cəhət də daxil edilir. Sfera tam, vahid bir sahədir. Bu sahə termin sistemi yaradaraq elm sahələrini formalaşdırır. Belə qənaətə gəlmək olar ki, hər bir elmə dair terminlər sistemi onun semantik sferalarını özündə əks etdirmək gücünə malikdir. Hər bir elm sahəsinin bilik sistemində yeri, metodologiyası, əsas anlayışları, nəzəriyyəsi müasir dövrümüzdə zəngin terminlər çoxluğunu yarada bilmişdir. Bu əhatəli, geniş terminoloji lay təkcə anlayış baxımından deyil, eləcə də elm sistemini yaradır. Definitiv terminlərin leksik-semantik təhlili ilə yanaşı onların funksional-semantik əlamətləri terminlərin formalaşmasında əsas götürülmələdir. Dilə antroposentrik yanaşma ilə terminlərinin funksional-semantik əlamətləri təyin olunur. Dillə anlayış arasında münasibət onların ifadəsinə çevrilmiş terminlər arasındakı assosiativ əlaqələri müəyyənləşdirir. Terminlərə bu prizmadan yanaşanda koqnitiv bir zəncir alınır. Həmin zəncir terminin yaranma, dərk olunması semantikası ilə bağlıdır. Hər hansı bir elm sahəsinin terminlərinin yaranması prosesində terminin əlamətləri nəzərə alınmalıdır. A.A. Reformatskinin qeyd etdiyi kimi, “*terminin əlamətləri − abstraktlıq, konseptuallıq, üslubi neytrallıq, dəqiq nominasiya, mənanın tam motivləşməsi, milli-linqvistik*

*özünəməxsusluq, kontekstdən asılı olmamaq, sistemlilik nəzərə alınmalıdır"*[7].

Bu baxımdan elm sahələrinə məxsus terminoloji vahidlər çoxsaylı semantik sferalarda birləşir. Məsələn: Varlıq anlayışı fəlsəfə elminin əsasını təşkil edən əbədi məsələdir və fəlsəfi sistemi təşkil edən əsas terminlərdən biridir. Bu anlayış sferasında fəlsəfədə bir sıra anlayışlar yaranmışdır: varlıq, ontologiya, həqiqət, yalan, xeyir, şər və s. Fəlsəfi kateqoriya olan varlıqla bağlı isə "mümkün varlıqlar", "zəruri varlıq", "əbədi varlıq", "keçici varlıq", "maddi varlıq", "insan varlığı", "sonlu və sonsuz varlıq", "dünyanın varlığı", "ideal varlıq" və s. terminlər yaranmışdır. Semantik sfera əsasında "varlıq" termininin özü iki mənada izah olunur. Geniş mənada varlıq bütün real mövcud olanlar deyil, o həm maddi, həm də mənəvi ola bilər. Bu baxımdan terminin definitivləşməsində bu semantika əsas götürülərək yeni terminlər yaradılır. Hər bir sahənin terminlərinin formalaşmasında bu proses nəzərə alınmalıdır.

Dissertasiyanın üçüncü fəsli **"Azərbaycan dilində definitiv terminlərin standartlaşdırılması"** adlanır. Bu fəslin **"Definitiv kontekst"** adlanan birinci bölməsində definitiv kontekstin xüsusiyyətləri, terminin təyin edilmə əlamətləri müəyyənləşdirilir.

T.R.Kiyakın fikrincə, "d*efinitiv kontekstdə xeyli sayda termin iştirak edə bilər və həmin terminoloji vahidlərdən təkcə biri təyinatını ala, yəni definitiv müəyyənliyini tapa bilər. Çoxlu sayda olan terminlər də yeni definitiv kontekst tələbinə müvafiq olmalıdır. Həmin müvafiqlik bu və ya digər leksik vahidin terminə çevrilməsini təyin etmək ardıcıllığına şərait yaradır və sistematik definitiv kontekstdən istifadə edilməsinin lazım olduğunu şərtəndirir"*[8]. Kontekst anlayışın düzgün təyin edilməsində, onun terminə

---

7 Реформатский, А.А. Термин как член лексической системы языка // Проблемы структурной лингвистики, – Москва: Наука, – 1967, с.34

8 Кияк, Т.Р. Внутренняя форма, дефиниция, мотированность терминологической и общеупотребительной лексики // Терминологические обеспечение научно-технического прогресса, – Омск: Изд-во ОПИ и ОТИ, – 1988. – с. 69.

çevrilməsində əsas vasitədir. Bunun üçün yeni təyinat tələb olunur ki, qeyd olunan terminlərin də definitiv funksiyaları göstərilə bilsin.

Terminoloji anlayışların təyin edilməsi onların məzmununun müəyyənləşdirilməsi deməkdir. Qeydəalma zamanı termin-anlayışa tərif verilir. Anlayışa tərif verilərkən onu müəyyənləşdirə biləcək əlamətlər məcmusunu seçib fərqləndirmək lazımdır. Həmin əlamətlər, bir tərəfdən anlayışın digər anlayışlarla yaxınlığını müəyyən edir, digər tərəfdən həmin anlayışı ona yaxın olanlardan fərqləndirir, seçib ayırır.

Aydındır ki, terminlərin hansı sahəyə aid olması əlavə informasiya verməyi və ötürməyi tələb edir. Q.V.Kolşanskinin fikrincə, "*terminin təyini üçün mövcud olan xüsusiyyətləri kontekstin daxilində axtarmaq lazımdır. Həmin kontekst təbiəti etibarı ilə bütöv təsir bağışlamalı, definisiyanı tam əks etdirməlidir*"[9].

Belə ki, definitiv kontekstdə başlıca anlayışı bildirən sözün termin olmasına heç bir şübhə qalmır. Terminin təyin olunması, hər şeydən öncə, sahə anlayışı ilə bağlıdır ki, bunun da bir sıra şərtləri nəzərə alınmalıdır.

Üçüncü fəslin ikinci bölməsi **"Definitiv terminlərin sistemləşdirilməsində tərifin formaları"** adlanır. Bu bölmədə anlayışın təyin edilməsi və terminə tərifin verilməsi xarakterizə edilmişdir. Qeyd edilir ki, tərif formalarının çoxluğu onunla əlaqədardır ki, eyni tipli təriflərdə anlayışların hamısını müəyyənləşdirmək mümkün deyil. Buna görə də müxtəlif tərif formalarından istifadə olunur. Bu təriflərdə terminlərin yaranma xüsusiyyətləri əsas götürülür. Belə ki, fizika, həndəsə riyaziyyat sahələrində predmetin formalaşma, qurulma mexanizmi və düzəldilmə üsulu əsas götürülərək ona tərif verilir. Məsələn, silindr, kub, funksiya necə qurulursa elə də tərif verilir. Terminlərin tərifində anlayışın məzmunu əsas götürülür, predmetin təsvir edilməsi yolu ilə ona tərif verilir. Bir proses kimi cins və cinsə məxsus əlamətlər əsas sayılır. Bu baxımdan "*Tərif məntiq elminin*

---

9 Колшанский, Г.В. Контекстная семантик / Г.В.Колшанский. – Москва: Наука, – 1980. с.27

*anlayışıdır. İnsan təfəkküründə yaranmış hər hansı bir elmi tərif dil vasitəsilə gerçəkləşir. Burada təfəkkür qanunları ilə dil qanunları çarpazlaşır. Məntiqi cəhətdən anlayışı düzgün təhlil etmədən heç bir anlayışa tərif vermək olmaz. Çünki tərifin elmi əsası, məntiqi tərəfi olmalıdır. Hər hansı bir linqvistik kateqoriyaya tərif vermək istədikdə, mütləq onun ümumi və özünəməxsus cəhətlərini seçmək lazımdır. Yəni anlayışın diferensial və inteqral cəhətləri linqvistik tərifin əsasında durmalıdır. Bu da tamamilə məntiq qanunları əsasında mümkün olur"*[10].

Məntiq elmindən bəlli olur ki, tərif terminin başlıca əlamətlərini, keyfiyyətlərini, daxili məzmununu, funksional xarakterini tam şəkildə əhatə etməlidir. Müəyyənləşdirilir ki, təriflərdə ancaq anlayışlara məxsus əsas əlamətlər əhatə olunmalıdır. Buna görə də müxtəlif sahələrə dair anlayışların, terminlərin əsl tərifini, şərhini vermək üçün definitiv mətnlərdən istifadə etmək məqsədəuyğundur.

Üçüncü fəslin üçüncü bölməsi **"Terminlərin yaranma prosesində definisiya kriteriyaları"** adlanır. Bu bölmədə terminlərin yaranma prosesində onları təyin edən definisiya kriteriyaları təhlil edilmişdir. Müəyyənləşdirilir ki, terminlərin yaranmasında aşağıdakı definisiya kriteriyaları nəzərə alınmalıdır: konseptual tamlıq kriteriyası, məlumat kriteriyası, statistik kriteriya, məntiqi bağlılıq kriteriyası, distributivlik kriteriyası.

Definitiv terminin konseptual tamlıq kriteriyasında söz birləşməsinin komponentlərə parçalanması nəticəsində terminoloji mənanın saxlanılması əsas götürülür. Bunun üçün komponertlərin başqa sözlərlə əvəz olunması, söz sırasının dəyişdirilməsi, birləşməyə əlavə sözün daxil edilməsi və s. üsullardan istifadə olunur. Statistik kriteriyada isə termin-söz birləşməsini təşkil edən komponentlərin bir-biri ilə birləşməsi zamanı tərəflərin terminyaratmada sayını nəzərə almaq baxımından tədqiq edilir. Məntiqi bağlılıq kriteriyasında anlayışın əlamətlərinin təyinində

---

10 Babayev, A. Dilçiliyə giriş / A.Babayev. – Bakı: Maarif, – 1992. s.17.

onlar arasında bağlılıq əsas götürülür.

Termin yaradıcılığı prosesində anlayışların definisiyaları müəyyən və aydın olmaya bilər. Yəni *"Definisiyalar müəyyən və qeyri-müəyyən ola bilər. Qeyri-müəyyən, yaxud aksiometik definisiyalarda definitivlik "dairəvi" səciyyəli olur, çünki onlarda ilkin terminlər bir-birini müəyyənləşdirir. Müəyyən definisiyalar predmetlərə (reallıqlara) münasibətdə real və dilə yeni işarələr gətirdikdə, artıq mövcud olanları dəqiqləşdirdikdə nominal ola bilər"*[11].

Bu zaman distributivlik kriteriyası əsas götürülməlidir. Elmin müxtəlif sahələrində dilin spesifik anlayışlarının araşdırılması prosesində hər bir sahəyə aid mətnlərdə onun derivatları da təhlil obyekti olmalıdır. Məsələn, abdominal (*abdominalis)* – qarın boşluğuna aid mənanı bildirir. "Abdominal" (tibdə) termini ilə işlənən sözləri seçsək, təqribən belə bir cərgə alınır: abdominal aktinomikoz, abdominal epilepsiya, abdominal-epileptik tutma, abdominal miqren, abdominal punksiya, abdominal sindrom. Bu leksemlərin başqa sözlərlə işlənməsindəki distributiv məhdudiyyət həmin sözlərin qarşılıqlı əlaqəsini əks etdirir. Deməli, bu birləşmələrin definitiv terminliyini yoxlamaq zəruriliyi yaranır, eləcə də onun haqqında nəticə çıxarılır. Eyni zamanda anlayışın definitivləşməsi prosesi məntiqi mülahizələrə əsasən müəyyənləşdirilir. Həmin mülahizələr məntiqi teoremlər kriteriyası ilə təyin edilir. Bu kriteriyalar əsasında definisiya terminin hansı məfhumu adlandırmasını həmin məfhumun xarakterik əlamətləri əsasında təyin edir, sözün mənası termin səciyyəsi aldıqda dəqiqləşir.

Dissertasiyanın üçüncü fəslinin dördüncü bölməsində **"Definitiv terminlərin standartlaşdırılma prosesi"** təhlil olunmuşdur. Standartlaşma terminoloji sistemin vahid formaya salınmasıdır. Bu zaman nizamasalınma müəyyən bir sistem və ardıcıllıqla həyata keçirilir. Bu ardıcıllıq içərisində anlayışların

---

11 Городецкий, Б.Ю. К проблеме семантической типологии / Б.Ю.Городецкий. – Москва: Изд. Московского Университета, – 1969. – с.5.

seçilməsi, qruplaşdırılması, bölgüsü, təriflərin təyin edilməsi əsas yerlərdən birini tutur. Anlayışlar sahənin özünə, yaxud yaxın sahələrə aid olması təyin edilir.

Anlayışlar seçilmiş kateqoriyalar və onların yarımqrupları arasında təyin olunur. Standartlaşdırma prosesində termin-anlayışlar bu kateqoriyalara əsaslanaraq seçilir və fərqləndirilir. M.İsmayılova yazır: *”Terminologiyanın standartlaşdırılması prosesində terminologiyanın elmi əsasları rəhbər tutulmalıdır. Standartlaşdırmanın əsasında vahid təsnifat prinsipinin durması üçün birinci növbədə terminologiyanın, terminlərin müəyyən əlamətlərə görə təsnifat məsələləri dəqiqləşdirilməli, müfvafiq kateqoriyaya daxil olan vahidləri təyin etmək məqsədilə əsas əlamətlər seçilməlidir”*[12]. Standartlaşdırmanın təşkilinin özü terminlərin unifikasiyasını tələb edir. Unifikasiyanın nəticəsi olaraq, terminoloji vahidlərin formalaşması vahid sistemə salınır, terminlərin düzgün və dəqiq definisiyaları təyin edilir. Definitiv terminlərin standartlaşdırılması verilən interpretasiyaların dil qanunauyğunluğuna əsaslanır. Definitiv terminlər anlayışın və linqvistik mənanın sintezini əks etdirir.

Definitiv terminlərdə definisiya və tərif, əlbəttə, müxtəlif anlayışlar kimi çıxış edir. Tərif mahiyyət etibarilə anlayışı daha dəqiq və daha lakonik şəkildə izah və şərh edir. Ona görə də, müvafiq terminoloji lüğətlərdə terminin tərifindən istifadə olunmalıdır. Standartlaşdırma prosesində terminin tam şəkildə təyin edilməsi, yaxud da birmənalı definisiyası olmayan anlayışlar da müəyyənləşdirilir. Bu anlayışlar əlavə izahlarla müəyyənləşir.

Elmi-texniki terminologiyanın standartlaşdırılması həm unifikasiya, həm də optimallaşma xarakteri daşıyır. Bu baxımdan standartlaşdırılmış definitiv terminlər linqvistik tələblərə cavab verməklə bərabər, məntiqi ölçülərə də cavab verməlidir. Çünki definitiv terminlərə verilən kafi və zəruri əlamətlər bir-birindən

---

12 İsmayılova, M. Azərbaycan dili terminologiyasının linqvistik təhlili / M.İsmayılova. – Bakı: Ozan, – 1997. – s.222.

fərqlənə bilər. Bu fərqlər, fikrimizcə, subyektiv faktorların təsiridir. Belə faktorların təsirini aradan qaldırmaq üçün terminoloji vahidlərin standartlaşdırılmasında izahlı lüğətlərdə və ya terminoloji lüğətlərdə, elmi-tədrisdə ən çox istifadə olunan tərifə üstünlük verilməlidir.

Elmin, texnikanın inkişaf etdiyi müasir dövrdə istehsal edilən məhsulların adlandırılması, onların standartlaşdırılması qarşıda duran ən mühüm problemlərdən biridir. İstehsal sahələrinin − müəssisələrin bir neçə milyon adda reallaşdırdığı məhsulları qruplara, yarımqruplara, növlərə, yarımnövlərə bölmək işi böyük zehni zəhmət tələb edir. Bu baxımdan definitiv tipli terminlərin standart variantları aşağıdakı tələblərə mütləq cavab verməlidir: linqvistik düzgünlük; anlayış uyğunluğu və dəqiqliyi; diferensialıq; kafi və zəruri əlamətlərin təyinolunma və müəyyənləşməsində ayrılma və xüsusiləşmə; sistemlilik, anlaşıqlıq, dildə mənimsənilmə dərəcəsi və s. Beləliklə, hər bir elm sahəsinə aid standartlaşdırılmış definitiv terminlərin siyahısını, kafi və zəruri əlamətlərini təyin edən nizamasalınma sənədlərinin yaradılması zamanın tələbidir. Bu həmin elmi sahənin daha dərindən tədqiqini və tədrisini istiqamətləndirir. Definitiv terminoloji vahidlərin standart siyahısına, onların tərifi haqqında məlumatlar da daxildir. Terminin tərifinin standart sənədində verilməsi məcburidir. Standartın tərif hissəsində artıq termin definitivləşir. Terminoloji lüğətlərdə standartlaşma məqsədi daşıyan lüğət məqalələrində definisiyanın dəqiqliyi və tamlığı xüsusi önəm daşıyır. Burada iki cür definisiya − terminin və anlayışın definisiyası meydana çıxır və bunlar üçün analoji hal onların üst-üstə düşməsidir.

Tədqiqat prosesi zamanı əldə edilən nəticələri aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. Definitiv terminlərin tədqiqi göstərir ki, onlar həm məntiqə, həm də dilçiliyə məxsus kateqoriya kimi hər iki elmin qovşağında öyrənilir. Belə ki, məfhum əşyanın insan şüurunda ümumiləşmiş əksidirsə, sözün səs tərkibi bu əşyanı inikas etdirir. Termin anlayışla məna və məzmun cəhətdən bağlı olur. Çünki hər hansı terminin səs tərkibi dilin tarixi inkişaf prosesində əldə etdiyi məna ilə əlaqədardır. Bu səbəbdən definitiv terminlərdə məna əsas götürülür.

2. Anlayışın zəruri və kafi əlamətlərini əks etdirən, özündə saxlayan struktura malik definitiv terminlərin yaranmasının əsasında dilin öz sözlərinə məxsus semantik terminləşmə, terminalma, başqa dillərdən kalkaetmə, qrammatik üsullarla terminyaratma kimi vacib şərtlər dayanır. Azərbaycan dilində definitiv terminlərin yaranması, meydana çıxması prosesi müəyyən qanunauyğunluqlarla bağlıdır. Həmin qanunauyğunluq anlayışın dəqiq statusunu tapa bilməsi ilə xarakterizə olunur. Tədqiqat göstərir ki, terminin definitiv xüsusiyyətlərini təyin etmək üçün aşağıdakı əsas əlamətləri nəzərə almaq lazımdır: termin xüsusi anlayış ifadə edir; termin xüsusi sferalarda işlənir; termində anlayışa verilən tərif qaydalara zidd olmamalıdır.

3. Terminin definisiya əlaməti mütləqdir. Definitiv ölçüdə adlandırılan predmetin zəruri xüsusiyyətlərinin məcmusu termində öz inikasını tapa bilir. Bu əlamətlər içərisində zəruri və kafi cəhətlər müəyyənləşdirilir və terminoloji vahidin fonetik qabığında təzahür edir.

4. Gerçəkliyin bütün obyektləri kimi, dilin leksik-semantik sistemində özünəməxsus yeri olan definitiv terminlərin də məzmun və formanın vəhdətindən ibarət olması təbiidir. Yəni definitiv terminlərdə məzmun formadan ayrı təsəvvür olunmur. Müxtəlif formalarda əks olunan definitiv terminlər gerçəkliyin təzahür formasıdır.

5. Definitiv terminlər əhatə etdiyi sahələrdə məntiqi-linqvistik cəhətdən dəqiq formalaşmış spesifik anlayışları ifadə edərək, dilin leksik-qrammatik meyarlarına uyğun gəlir. Bu zaman terminin definisiyası ilə əlaqədar aşağıdakı əlamətlər müəyyənləşdirilmişdir: terminin definitiv cəhəti onun ifadə etdiyi anlayışla bağlıdır; termin anlayışın ən zəruri olan, kafi sayılan əlamətlərini özündə toplayıb saxlayır; definitiv terminlərdə özünü göstərən yeni cəhət onun məntiqi semlərində gerçəkləşir; terminin semantikası onun tərifində yığcam şəkildə öz əksini tapır.

6. Anlayışın definisiyası ilə əlaqədar terminoloji vahidin semantikasında yenilik, dəyişiklik baş verə bilər. Burada mənanın dəyişməsi, definisiyanın dəyişməsi ilə bağlıdır. Definitiv terminlər

terminoloji sistemdə öz dəqiqliyi ilə seçilir və belə terminlərdə xüsusiləşmiş məna bildirmə əlaməti daha güclü olur.

7. Terminin definitiv tərifi ilə bağlı çıxarılan nəticələr bir sıra tələblərə cavab verməlidir. Bunlar aşağıdakı kimi müəyyənləşdirilmişdir: Anlayışı digər anlayışlardan fərqləndirən ən əhəmiyyətli əlamətləri seçilməlidir; Anlayışı təyin edən təriflər konkret olmalıdır; Tərif sistemlilik xüsusiyyətinə malik olmalıdır, yəni anlayışın sahə anlayışları sistemində yerini müəyyənləşdirməyə imkan verməlidir; Tərifdə təkrara yol verilməməlidir; Tərifdə aydın olmayan anlayışlar və qeyri-standart söz və terminlər işlədilməməlidir; Tərif dilin normalarına cavab verməlidir; Tərif təsviri izahla əvəz edilməməlidir.

8. Terminlər definitivləşmə prosesində ifadə etdiyi anlayışlar sistemi ilə bilavasitə uzlaşaraq tərif qazanmaq üçün müvafiq anlayışların məzmununun interpetasiyasını verir, onu müəyyən çərçivədə təsbit edir. Odur ki, definisiyaya malik terminlər xüsusi təyinat alaraq mətndən asılılıqdan azad olur.

9. Terminoloji vahid müəyyən sahə terminologiyasında xüsusiləşir. Həmin sahənin terminologiyasından kənar termin ola bilmir. Terminin təyinatını verən kontekst onun definisiyasıdır. Definisiya izah, şərh isə sahənin anlayışları əsasında qurula bilir. Definisiya təkcə anlayışı bir tərəfli təyin etmir. Definisiya anlayışlar arasında olan sərhədləri də müəyyənləşdirir.

10. Terminlərin adlandırılmasında, təyin edilməsində onların səciyyəvi əlamətləri, definisiyası qəbul edilmiş kriteriyalar əsasında müəyyənləşdirilir. Definisiya dəqiq və ictimai elm sahələrində çoxcəhətliliyi ilə diqqəti cəlb edir. Definitivlik anlayışın məzmununun və mahiyyətinin təyin edilməsidir. Bu kriteriyalar anlayışın fərqləndirilməsində terminin əsas əlamətlərinin qəbul edilməsini şərtləndirir. Definitiv terminlərdə definisiya və tərif, əlbəttə, müxtəlif anlayışlar kimi çıxış edir. Tərif definisiyanın bir növü kimi özünü göstərir. Tərif mahiyyət etibarilə anlayışı daha dəqiq və daha lakonik şəkildə izah və şərh edir.

11. Tədqiqatdan aydın olur ki, definitiv terminlərin standart variantları anlayış uyğunluğu və dəqiqliyi, diferensiallıq, kafi və

zəruri əlamətlərin təyinolunma və müəyyənləşmə, ayrılma və xüsusiləşmə, sistemlilik, anlaşıqlıq və s. bu kimi tələblərə cavab verməlidir. Definitiv terminlərlə əlaqədar Azərbaycan dili terminologiyasının standartlara uyğunlaşdırılması məsələlərinin dərindən araşdırılması və həyata keçirilməsi müvafiq elm sahəsinin inkişafını müəyyənləşdirə bilir. Ayrı-ayrı elm sahələri üzrə definitiv terminlərin unifikasiyası, standartlaşdırılması ilə əlaqədar araşdırmaların genişləndirilməsinə ehtiyac var ki, bu da terminoloji vahidlərin definitiv tipinin hərtərəfli öyrənilməsinə şərait yaradır. 12. Hər bir elm sahəsinə aid standartlaşdırılmış və normalaşdırılmış definitiv terminlərin siyahısını, əlamətlərini təyin edən nizamlanma sənədlərinin yaradılması terminologiyanın nizama salınması üçün zəruridir. Standartlaşdırma prosesində terminin definisiyasının dəqiqliyi və tamlığı dəqiqləşdirilməlidir. Terminoloji lüğətlərdə standartlaşma məqsədi daşıyan lüğət məqalələrində definisiyanın dəqiqliyi və tamlığı xüsusi önəm daşımalıdır.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**


1. Definitiv terminlərdə forma və məzmun // Terminologiya məsələləri, – Bakı: Elm, – 2004, – s. 146-150.
2. Definitiv terminlərin struktur təhlili // Elmi axtarışlar.XXVII, – Bakı: "Səda", – 2006, – s. 92-94.
3. İqtisadi terminologiyada definitivlik // Terminologiya məsələləri, – Bakı: Elm, – 2007, – s. 186-190.
4. Azərbaycan dilində definitiv terminlər standartlaşdırma obyekti kimi // Terminologiya məsələləri, – Bakı: Elm, – 2008, – s. 171-178.
5. Terminin funksiyaları və definitiv kontekst məsələləri // Elmi axtarışlar, – Bakı:2008. № 1/02, – s. 95-100.
6. Definisiya və onun tipləri // Dil və ədəbiyyat, Bakı – 2008. №2 (62), – s. 35-38.
7. Azərbaycan dilində definitiv terminlərin yaranma mənbələri və üsulları // Dil və ədəbiyyat, Bakı – 2008. №4 (64), – s. 18-20.
8. Azərbaycan dilində definitiv terminlərdə məna və məfhum

arasında münasibət // Terminologiya məsələləri, – Bakı: Elm, – 2009, – s. 146-149.

9. Definitiv terimlerin kavramla ilişkisi // TURAN. Stratejik Araştırmalar Merkezi. Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergi, − Konya/Türkiye – 2009. Sayı: 2. İlkbahar Dönemi, – s. 54-58.

10. Terminlərin yaranma prosesində definisiya kriteriyaları // Terminologiya məsələləri, – 2016. № 2, – s. 126-133.

11. Definitiv sahə anlayışı. Sahə terminologiyasında definitivlik // "Müasir türkologiya: dünən, bu gün, sabah (problemlər və perspektivlər)". I Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları, – Bakı: – 28 dekabr, – 2016, – s. 116-118.

12. Разъяснение особенностей дефинитивных терминов // Мова і культура // Научное издание. Киевский национальный университет им.Тараса Щевченко, − Киев – 2017. Вып. 20. Том I (186), – с. 214-218.

13. Формы определения систематизации дефинитивных терминов // Філологічні науки: сучасні тенденціі та фактори розвитку». Міжнародна науково-практична конференція, – Одеса: 24-25 січня – 2020, – с. 92-94

14. Definitiv terminlərin semantik sferaları. // Azərbaycan Respublikası Təhsil Nazirliyi. Sumqayıt Dövlət Universiteti. Türkiyə Cümhuriyyəti Hacettepe Universiteti. Türk dillərinin və ədəbiyyatının tədqiqi və tədrisinin aktual problemləri.//Beynəlxalq konfrans(20-21 may 2021-ci il)//Birinci Türkoloji Qurultayın 95 illik yubileyinə həsr edilir,− Sumqayıt: − 2021, – s. 687-690

Dissertasiyanın müdafiəsi 28 iyun 2022-ci il tarixində saat $13^{00}$ - da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.
Ünvan: Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.
Avtoreferat 27 may 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.05.2022
Kağız formatı: 60x84 16\[1]
Həcm: 42  538
Tiraj: 100